Respublika.- 2021. - 8 dekabr. - S.5.

# Xüsusi Təyinatlı Dəstənin igid döyüşçüsü



**Əhmədov Sənan Zakir oğlu Vətən müharibəsi qazisidir. Xüsusi təyinatlı dəstənin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi müharibənin ilk günündən sonadək ön cəbhədə vuruşub. Əvvəlcə Kəlbəcər-Murov-Laçın, sonra isə Füzuli-Şuşa istiqamətində gedən döyüşlərdə cəsur döyüşçü kimi xüsusi bacarığı və çevikliyi ilə seçilib. Düşmən qüvvələrinin darmadağın edilməsində əsl igidlik nümunələri göstərib. Şuşa uğrunda gedən döyüşlərdə sağ ayağının bud nahiyəsindən ağır yaralanıb. Bir neçə dəfə əməliyyat olunub. Müharibədə göstərdiyi xüsusi xidmətlərinə görə igid döyüşçü ölkə başçısının müvafiq sərəncamları ilə bir sıra orden-medallarla təltif olunmuşdur.**

Beynəlxalq Əlillər Günündə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev qazini yaşadığı Xaspolad oba kəndindəki evində ziyarət edib. Qazi ilə görüşdə icra başçısı müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbənin əhəmiyyətindən, bu qələbədə Silahlı Qüvvələrin sıralarında xaçmazlı əsgər və zabitlərin şücaətindən, habelə şəhid ailələrinə, qazilərə, eləcə də döyüşçülərə göstərilən dövlət qayğısından danışıb.

Qazi Sənan Əhmədov keçdiyi döyüş yolundan danışmış, cəbhə xatirələrini söyləmişdir.

Sonra RİH başçısı E.Rzayev ailənin qayğıları ilə maraqlanmışdır. Sənan Əhmədov və onun valideynləri göstərilən qayğı və diqqətə görə ölkə Prezidentinə minnətdarlıqlarını bildirmişlər.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**